

## RAFIQ AKIF

***Rafiq Akif - Rafiq Akif oğlu Məmmədov 1 fevral 1962-ci ildə İsmayıllı rayonunun Mollaisaqlı kəndində anadan olub. Həmin ildə atasının təyinatıyla əlaqədar Göyçay şəhərinə köçüblər. Orta təhsilini Göyçay şəhər 1 (indiki 9) nömrəli orta məktəbində alıb.***
***Əsgəri xidmətini Qazaxıstan ərazisində yerləşən Sovet Ordusunda keçib. Hərbi xidmətdən sonra bir müddət Rusiyanın Tver vilayətinin Kimri şəhərində yaşayıb, elə ali təhsilini də orada alıb.***
***1993-cü ildən Bakıda yaşayır.***
***1978-ci ildən şeirləri ilə mətbuatda çap olunur, üç kitab müəllifidir.***
***Rafiq AKİFİ doğum günü münasibətilə təbrik edir və şeirlərindən bir neçəsini oxuculara çatdırırıq.***

# *QOCALIQ*

Cahanı rəngbərəng görən gözlərim,
İndi itib nuru ağ, qara görür.
Vurnuxan, çağlayan arzularım da,
Kamına yetmədən köksümdə ölür.

Hərdən istəyirəm köçü unudam,
Yatmış vulkan kimi püskürsün odum.
Fəqət, gəncliyimi göyə sovurdum,
İndi xatirələr üzümə gülür.

Al günəş qüruba çökərsə əgər,
Kainat zülmətdən donunu geyər.
Bundan sonra həyat, de nəyə dəyər,
Zaman bıçaq kimi çarəni bölür.

Nə edim, dağıldı gənclik qalası,
Sonu qismət dörd divarın arası,
Çarə etməz dünya pulu-parası,
Səndən əvvəl göydə ulduzun sönür.

Ömrün qürub çağı-illərim xəzəl,
Görəsən harada haqlayar əcəl.
Rafiq, ümüdlərə çatmayanda əl,
Həyatda varlığın xəyala dönür.

# *BİLİRSƏNMİ...*

Bilirsənmi, sənsiz necə çətindir,
Yuxuda hər gecə adını çəkmək...
Əksini axtarmaq hər keçən kəsdə,
Ömrünü göy yaşlı əskiyə bükmək...

Bir vaxt məlhəm idi eşqin hər dərdə,
İndi yel oynayır sümüklərimdə.
Unudub ünvanı yan keçir hamı,
Yada salmır üzü dönüklərim də.

Bilirsənmi, hicranın sağalmır yeri,
Adında olanda doğmalıq varmaq...
Sönmüş xatirələri qaytarıb geri,
İstərdim vüsalla xöşbəxt yaşamaq.

Tək onu sevdim, var canımda ruhu,
Söndürə bilməz heç kim bu atəşi.
Mənimçün ilahi məhəbbət şahı
O imiş ömrümün ayı, günəşi.

Bilirsənmi, həyat necə çətindir,
Doğman ola-ola qalasan yetim.
Loğman, gücün çatmaz, dərdlərim mindir,
Nə edim beləcə yazılmış bəxtim.

# *HEYİF Kİ...*

Ruhum titrəyirdi adi adın gələndə,
İndi kömək etmir saxta eşqin də.
Gör necə gözümdə alçalmısan ki,
Tüküm də titrəmir səni görəndə.

Bu aşiq Məcnuna yar olmadın ki,
Kiminsə eşqinə sadiq qalasan?!
Neçə ürəkləri viran qoydun ki,
Bir gün tənhalığa düçar olarsan.

Heyif itirdiyim sənli günlərə,
Yadıma düşəndə içim göynəyir.
Mənimtək neçəsin salsan qoynuna,
Xəcalət, xəstəlik, ölüm gözləyir.

Gözəllik başına bəla olacaq,
Kişilər arıtək balın soracaq,
Həyatda heç bir şey sonsuz deyil li,
Bir gün ləcəyinə milçək qonacaq.

Bir ocaq isidib olardın ana,
İsmətli qadına olardın sən tay.
Yadına düşəcək bir gün öyüdüm,
Təssüf ki, gec qanıb çəkəndə haray.

## BU DÜNYANIN ADAMI DEYİLƏM

Gəl, əl çək məndən, ay adam,
Bu dünyanın adamı deyiləm.
Gündüzlər yaşadığımı
Gecələr haq-hesab edirəm.

Gündüzüm günahlarda,
Vurhavurda, yıxdayıxda,
Elə unudub Allah da,
Dörd səmtə varıb gedirəm.

Gəl, əl çək məndən ay adam,
Burda təkəm, burda yadam.
Ölsəm, kimim var ağladam?!
Hüznü cana yedirirəm.

Yaşım çoxdur, kim ağlasın?!
Daşım ağır, kim saxlasın?!
Gedən gedib, nəyim qalsın?!
Astarımı geyinirəm.

Ya öldürün, ya dirildin,
Can ki, yox dara çəkdirin.
Əcəl taxtına mindirin,
Burda ömür çürüdürəm.

## SƏN

Bu necə tale, bu gündə,
Dərd əlində qəlb sınıq.
Nagümanlıq içində
Ölür canım bir anlıq.

Dodağımda lamisə,
Ürəyimdə nübarsan.
Kimin üçün adi kəs,
Mənim üçün kübarsan.

Sən adidən adisən,
Sən tapılmaz nadirsən.
İçimdə yuva qursan,
Orda da öləsisən.

Dağıt içimdə ev qur,
Yaşat viranə ömrü.
Saman çöpündən aslı,
Güldür sızlayan könlü.

Sönmür bu ocaq, sönmür,
Səndən sonra üz gülmür.
Sən öldürdüyün bu eşq,
Əfsus, içimdə ölmür.

Doğmaydın doğmalardan,
İlk gördüyüm andan.
Qopara bilmirəm səni,
Kama yetməmiş candan.

## YALQUZAQ

Cavan ikən gəldi hicran,
Bu dünyada yetim qaldım.
Sənsiz yaşaya bilmədim,
Ölməyi də bacarmadım.

Qəm siminə köklənmişəm,
Sevinc düşüb qəlbdən uzaq.
Sevə bilmədim bir kəsi,
Yaşayıram tək, yalquzaq.

## DARIXIRAM SƏNİN ÜÇÜN

Taleyə bax, əvvəl yaddıq,
Hərə bir ocaqdan qopduq,
Eşq yolunda yuva tapdıq.
Söndü ocaq belə gün-gün,
Darıxıram sənin üçün.

Nə tez susdu bu məhəbbət?!
Hicranı ölümdən dəhşət.
Nəfəsim ətrinə həsrət,
Yollarımız düşdü düyün,
Darıxıram sənin üçün.

Mən qürurlu, sən inadkar,
Ümidimiz vermədi bar.
Təkcə sənə qəlbdə yer var.
O kəs deyiləm gördüyün,
Darıxıram sənin üçün.

Gəl payızı əynindən at,
Bəzən yazla nazla yaşat.
Gəl Rafiqə gözəl ovqat,
Dirilt eşqi sən öldürdüyün,
Darıxıram sənin üçün.

## SEVƏ BİLMƏZ

Zirvələrdə qar olarsan,
Xoş sözlərə aldanarsan,
Vallah, bir gün tək qalarsan,
Bir gün başa düşərsən ki,
keçən günlər geri dönməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Qalarsan yol ayrıcında,
Küləklər oynayar saçında,
Atılar yerə tacın da,
Bir gün baça düşərsən ki,
əzabına heç kim dözməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Qədrini bilmədin illərin,
Qoynunda qalar əllərin,
Üzdən itər gülüşlərin.
Bir gün başa düşərsən ki,
peşmançılıq kara gəlməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Heç kim daha, salmaz yada,
Dostların da, doğmalar da,
Qəlbdə solar arzular da,
Bir gün başa düşərsən ki,
solan çiçək bir də bitməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Qapıda qalar gözlərin,
Köksündə donar sözlərin,
Otür düşün bir az dərin,
Bir gün başa düşərsən ki,
ağlamaq da kömək etməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Ya gəl öldür, ya da ki sev,
Viran eşqdən quraq bir ev.
Sənsiz üzüm heç gülməyib.
Bir gün başa düşərsən ki,
yad segilər dərdə yetməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Ayaq altda yol yorular,
Sinəmdə dərd qovrular,
Əzizim, geri dön, nə olar?!
Bir gün başa düşərsən ki,
məzaradək sevgim ölməz.
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.

Bitər canım, sevda bitməz,
Heç kim səni mənim qədər,
məndən artıq sevə bilməz.